AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 2/5

Bakı şəhəri 15 fevral 2017-ci il

AMEA-nın nəzdində "Elmi media"
Məhdud Məsuliyyətli Cəmiyyətinin təsis edilməsi,
nizamnaməsinin, strukturunun və işçilərinin say tərkibinin
təsdiq edilməsi haqqında

AMEA-nın mətbu orqanları olan "Elm" qəzeti, "Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərlər Məcmuəsi" və "Elm və həyat" jurnallarında Azərbaycanda və dünyada elm sahəsində baş verən mühüm hadisələr, əldə olunan elmi nailiyyətlər, görkəmli elm xadimləri ilə aparılan müsahibələr, onların həyat və yaradıcılıqları, ölkədə və xaricdə təşkil edilmiş müxtəlif elmi tədbirlər, elmi tədqiqatlar və onların nəticələrinə həsr edilmiş məqalələr dərc olunur. Lakin hazırkı dövrdə büdcədən ayrılan maliyyə vəsaiti bu mətbu nəşrlərin çapı üçün kifayət etmədiyinə görə, əlavə gəlir əldə etmək, bununla da qəzetin çapına lazım olan xərcləri tam ödəmək və lazım gəldikdə tirajını artırmaq üçün AMEA-nın nəzdində sahibkarlıq fəaliyyəti ilə məşğul olan qurumun təsis edilməsi zərurəti yaranmışdır. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA Rəyasət Heyətinin nəzdində "Elmi media" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilsin.
2. "Elmi media" Məhdud Məsuliyyətli Cəmiyyəti AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinin tabeliyinə verilsin.
3. Cəmiyyətin Nizamnaməsi təsdiq edilsin (əlavə 1).
4. Cəmiyyətin nizamnamə kapitalı nominal dəyəri 50 (əlli) manat olan 1 (bir) paydan ibarət olmaqla 50 (əlli) manat məbləğində müəyyən edilsin.
5. Cəmiyyətin strukturu və işçilərinin say tərkibi təsdiq edilsin (əlavə 2).
6. Cəmiyyətin qanuni təmsilçilik funksiyasına malik olan direktoru vəzifəsinə Oqtay Eminağa oğlu Fətulla təyin edilsin.

7. Oqtay Fətullaya tapşırılsın ki, Cəmiyyətin dövlət qeydiyyatına alınması və fəaliyyətinin təmin edilməsi ilə bağlı zəruri tədbirləri həyata keçirsin.
8. AMEA-nın İşlər idarəsinə (siyasi elmlər üzrə fəlsəfə doktoru Fətəli Abdullayev) və AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, bu qərarın icrasından irəli gələn məsələləri həll etsinlər.
9. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT